## *12 iyul Böyük Zəfərimizə yol açan Tovuz döyüşlərinin ildönümüdür*

# TOVUZ DÖYÜŞLƏRİNDƏN ŞANLI ZƏFƏRƏ






O günləri heç vaxt unuda bilmərəm. Dünənki yox, indiki kimi xatırlayıram. 12 iyul gecə vaxtı atəşkəsin pozulmasından xəbər tutdum. İlk Şəhidlərimizin olduğu andan dərindən kədərləndim. Ertəsi gün bütün televiziyalar və sosial şəbəkələr Tovuz döyüşləri barədə xəbər yaymağa başladı. İlk Şəhidlərimizin dəfnlərindən olan görüntülər ürəyimi parçaladı. Sonra isə dayımoğlu Saleh Həsənovun Tovuzun Dondar Quşçu kəndində artileriyada Şəhid İlqar Mirzəyevin komandanlığı altında qızğın döyüşlərdə iştirak etdiyini eşitdim. Bütün əsgərlərimizin sağ-salamat bu döyüşlərdən qələbə ilə çıxmasını Allahdan arzu elədim. Ertəsi gün alacağımız məlumatdan isə xəbərsiz idik. Bu xəbər Azərbaycan xalqının yenidən oyanışına təkan verəcəkdi. 14 iyul günü, tarixə çevrilən o gün General-mayor Polad Həşimov Şəhidliyə yüksəldi! 30 il generalı Şəhid olmayan bir ölkəni bu xəbər necə dərindən sarsıdırdısa, bizi də sarsıtdı. Eşitdiklərimizə inana bilmədik. Həmin gün neçə-neçə Qəhrəmanlarımızı Şəhid verdik. 15 iyul gününün səssizliyini 16 iyul günü pozdu. 16 iyul günü əsgər Nazim İsmayılov Tovuz döyüşlərinin son Şəhidi olaraq Şəhadətə yüksəldi. Bu xəbər bizə "Bəsdir!" deməyə bəs idi. Döyüşlər səngidi, yara hələ də sağalmadı. Qisas alovunda yanan odlar ölkəsinin mərd oğulları, istefada olan zabitlər, əsgərlər Qarabağ uğrunda səfərbər oldular! O gün olsun ki sözü tarixə qovuşacaqdı. Müharibə gözlənilirdi!

21 sentyabr günü Şəhid olan Elşən Məmmədovun qisas günü artıq hazır idi. Təlimə gedən çağırışçılar bir neçə gün sonra Zəfər Tarixini yazmağa başladılar! Gün Zəfər günü idi! Həyat tamamilə dəyişirdi! Şəhidlər verilirdi, ancaq qisası alınan və qisas alan Şəhidlər! Və sonra bu yol Şuşadan da keçdi! Şuşada Zəfər Bayrağını dalğalandırdı! Bütün Şəhidlərimizin ruhu şad oldu! Ali Baş Komandan Tovuz döyüşlərində Şəhid olan hərbçilərimizi "Hərbi xidmətlərə görə", "İgidliyə görə", "Vətən uğrunda" medalları ilə və "Milli Qəhrəman" fəxri adı ilə təltif etdi.

Cənab General, rahat uyu! Səndən sonra qisasının eşqiylə Şəhid olanlar qisasını aldılar! Sən Ruhunla azad etdiyin Şuşada Zəfər Bayrağını da öz ruhunla dalğalandırmısan! O bayraq qisasının mirasıdır!

### POLAD

Qədim odlar yurdunun odu, közüsən, Polad,
Qələbə dastanının bir ön sözüsən, Polad,
Uğrunda can verdiyin ulu Vətən içində,
Sən o qədim Vətənin elə özüsən, Polad.

Dastanlarla böyüdün, sonda dastana döndün,
Şəhidliyə yüksəldin gözümüzün önündə.
Sən Zəfər Yolu üçün istiqamətdin, yöndün,
Ruhunla Fateh oldun Şanlı Zəfər günündə.

Qisasının eşqiylə necə igidlər getdi,
Onların sayəsində Vətən arzuya yetdi,
Şəhidim, oğlun yaşda olan igid Qəhrəman,
Sənin qisasın aldı, Murovu azad etdi!

1 il başladı qəmlə, davam etdi Zəfərlə,
Sənsiz keçən o 1 il davam etdi nələrlə,
Qəbrin üstə deyirik: "Pis gün geridə qaldı,
Ey Səngər Generalı, Əsgərin Zəfər çaldı!"

Sənin qızıldan taxtın ürəyimdə var bu gün,
Hünərinə Atsızdan qalıbdır şüar bu gün:
İnsan büyür beşikdə məzarda yatmaq üçün,
Qəhrəmanlar can verər yurdu yaşatmaq üçün.

Xatirəni edirik, edəcəyik daim yad,
Şuşamız oldu azad, rahat uyu, uyu şad,
Sən Hünər Tarixində yeni bir iz, yeni ad,
Yaşa, bizləri yaşat, Şəhid Həşimov Polad!

*12.07.2021*

### UÇUB GEDƏN BİR XƏYAL

Nə edim mən, necə yazım?
Əlimdə qələm quruyur.
Beynimdəki fikirləri,
Ürəyimdəki qoruyur.
Bir Şəhidin nəşi kimi,
Yazan əllərim soyuyur.
Bu dünyadan doymayanım,
Başqa dünyanın olanım.
Vətən üçün həyatından
Tez doyanım.
Öz içimdə şeirimi,
Əsə-əsə oxuyuram.
Gözümdə yox, qəlbimdəki,
Yaşlar ilə boğuluram.
Qafiyələri düşünüb,
Kövrək qəlbimi yoruram,
Müqəddəsləri anarkən,
Mən heç bir vaxt yorulmaram.
Mələk olan Şəhidimdən
Özüm üçün sormalıyam.
Necə seçim mən sözləri?
Məndə ki yoxdur ixtiyar.
Darlıq edir mənə fikir,
Ürəyimə yağır qarlar.
Gələcəyin eşqi ilə,
Bu yağan qarlar əriyir.
Uçub gedir ənginliyə,
Şəhidimin ruhu kimi.



İstəmirəm, istəmərəm,
İstəməzdim ki, mən yazım bu yazını.
Yazmalıydım Şəhidimin sağlığında.
Ondan çoxlu yazmalıydım,
Sadəcə fəxrlə, qürurla.
Ağlamazdım mən bu qədər.
Bilmirəm, o, istəyərdi?
Şəhidlərim,
İndi deyin insanlara,
Deyirsiniz:
"Sağlığında qiymət verin insanlara!"
Nə edim mən?
Artıq yaş axır gözümdən,
Nə edim mən?
Ağlamaq keçir könlümdən,
Nə edim mən?
Mən ki belə olmasını
İstəmirəm, istəmərəm!
Ürəyimə yağır qarlar,
Vərəqlərim bunu anlar,
Elə bil ki, kağızda var,
Şirin bir can,
Və əriyir,
Bir Şəhidin Anasını
Anlaya bilməsəm də mən,
Bunu çox yaxşı bilirəm.
1 ay 1 il kimi gəlir,
Dəqiqələr qərinədir.
Lakin Şəhidin anası,
Göz yaşın bilməməlidir.
Çünki o, Şəhid anası yox,
Vətən anası olmuşdur.
Düşünməsin açan çiçək,
Vaxtsız zamanda solmuşdur.
Ana, Vətən, doğma torpaq,
Namus, qeyrət, başda papaq -
Bunları biz əziz tutaq,
Şəhidlərimizi anaq.
Onda ruhları şad olar,
Məzarında rahat yatar.
Vaxt gələcək, bitəcək yas,
Alınacaq böyük qisas.

*20.08.2020*

**Sevindik NƏSİBOĞLU**